# Birinci vitse-prezident Mehriban Əliyeva 15 İyun - Milli Qurtuluş Günü ilə bağlı paylaşım edib

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində 15 İyun - Milli Qurtuluş Günü ilə bağlı paylaşım edib.

AZƏRTAC xəbər verir ki, Mehriban xanım Əliyeva Ümummilli Lider Heydər Əliyevin fotoşəklini və "Mənim həyat amalım yalnız sizə - bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət etmək olmuşdur" sözlərini paylaşıb.




Azərbaycan. - 2023.- 17 iyun.- S.1.